# Uğurlara səsləyən ilk zəng



"Bilik günü" münasibətilə təşkil olunan təntənəli tədbirlərlə rayonun bütün təhsil müəssisələrinə çökmüş yay tətilinin sükunəti şagirdlərin, gələcəyin qurucuları olan uşaqların sevinc dolu səs-küyü ilə pozulur. **176 nömrəli tam orta məktəbdə** rayon icra hakimiyyətinin təhsil və ictimaiyyət nümayəndələrinin, ziyalıların, valideynlərin də qatıldığı rəngarəng proqramla hazırlanan mərasimdə çıxış edənlər məktəb haqqında ürək sözlərini bildirdilər, yeni tədris ilində məktəbin kollektivinə uğurlar arzuladılar. **Məktəbin direktoru Sairə Rəsulova** hərtərəfli inkişaf yolunda ölkəmizdə milli təhsil sisteminin yeni, müasir tələblər səviyyəsinə yüksəldilməsinin əsas prioritetlərdən olduğunu diqqətə çatdırdı. Bildirdi ki, ölkə başçısının məhz bu sahəyə göstərdiyi xüsusi diqqət və qayğısı təhsil müəssisələrinin uğurlu inkişafını təmin edir. Heydər Əliyev Fondunun təhsil ocaqlarının fəaliyyətində həyata keçirdiyi layihələri xüsusi qeyd etmək lazımdır. 176 nömrəli məktəbin pedaqoq və şagird kontingenti üzərinə düşən bu məsul vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışır. Nailiyyətlərimiz çoxdur. Ötən tədris ilində 47 məktəb məzununun 70 faizi müxtəlif təhsil müəssisələrinə qəbul olunublar. Yeni tədris ilində birincilərdən təşkil olunan 4 sinifdə 83 şagird təhsildə ilk addımlarını atır. Ümumilikdə məktəbimizdə 850 nəfərə yaxın şagird öz sevimli pedaqoqlarından bilik öyrənəcəklər. Onlar üçün hər cür şərait yaradılıbdır. Dərsliklərlə təminat yaxşıdır. Məktəbimiz lokal internet şəbəkəsinə qoşulub.

**H.Aslanov adına 175 nömrəli tam orta məktəbdə** "Bilik günü" münasibətilə böyük coşquyla keçirilən tədbir yaddaqalan hadisəyə çevrildi. Rayon icra hakimiyyətinin, müxtəlif ictimaiyyət nümayəndələrinin də iştirak etdiyi mərasimdə bütün ifadə olunan təəssüratlar ilk dərs gününün bəxş etdiyi sevinc hisslərini əyani təcəssüm etdirirdi. **Məktəbin direktoru fizika-riyaziyyat elmləri üzrə fəlsəfə doktoru Qələndər Qələndərov** milli təhsil sisteminin inkişafı, rəhbərlik etdiyi məktəbin qazandığı nailiyyətləri barədə ətraflı söhbət açdı. Yeni tədris ilinin yeniliklərini diqqətə çatdırdı. Bildirdi ki, bu il ilk dəfə olaraq I siniflərə qəbul elektron ərizələr



vasitəsi ilə həyata keçirilib. Bu isə şagird yerləşdirilməsində müsbət hal kimi dəyərləndirilir. Qeyd etdi ki, 175 nömrəli tam orta məktəb Azərbaycan və rus bölməsi olmaqla yeni tədris ilinə 1338 şagird kontingenti ilə başlayır. Onların yüksək bilik almaları üçün pedaqoqlarımız bütün bacarıq və biliklərini ortaya qoyacaqlar. Şübhəsiz ki, məktəb üçün əlamətdar olan I-lərdir. Bu il təhsil estafetini özünəməxsus həyəcan və maraqla qəbul edən 163 şagirdimiz yeddi rus bölməsində, üçü isə Azərbaycan bölməsində qruplaşdırılıblar. Tədrisin yüksək səviyyədə aparılması üçün müvafiq prosedurlar həyata keçirilibdir. Şagirdlərin dərsliklərlə təminatında problem yoxdur. Sinif otaqlarımız, fənn kabinetlərimiz lazımi avadanlıq və vasitələrlə təmin olunublar.

Yeni tədris ilindən yalnız uğurlu nəticələr gözləyirik.

Maraqla izlənən tədbirin sonunda yeni uğurlara səsləyən, şagird və müəllimlər üçün doğma olan zəng çalındı.

**M.MUSTAFAYEV.**